# Azərbaycan mülki aviasiyası: keçmişi, bu günü və gələcəyi

**Qədimliyi ilə müasirliyin sintezindən gündən-günə dəyişən Bakı. Onun taleyinə çox özəlliklər yazılıb. Mavi Xəzərə söykənən bu şəhərin dördyol ayrıcında yerləşməsi təkcə gediş-gəlişin rahatlığı, əlverişliliyi deyil, Azərbaycanı dünyaya tanıtmaq baxımından da böyük əhəmiyyətə malikdir. Avtomobil, dəmir, su və bir də hava yolu... Dünyaya açılan bu yollar həm də mədəniyyətdir, inkişafın göstəricisidir.**

**Bakı Beynəlxalq Hava Limanı iki qitə - Avropa ilə Asiya qitələri arasında ən mühüm nəqliyyat mərkəzidir. Liman Şərqlə-Qərbi, Şimalla-Cənubu birləşdirən əsas hava dəhlizinin üzərində yerləşir. Bu isə ölkənin beynəlxalq layihələrdə əhəmiyyətinin artmasını təmin edir ki, bunlar da Azərbaycanın bu gün planetin ən mühüm regionu kimi tanınmasını şərtləndirir.**

**Müstəqilliyimiz möhkəmləndikcə, ölkənin iqtisadi qüdrəti artdıqca, yollar da dəyişir, müasirləşir, etibarlılığı təmin olunur. Azərbaycan Hava Yolları beynəlxalq standartlara uyğun olaraq yenidən qurulur, mülki aviasiyamız yeni inkişaf mərhələsinə qədəm qoyur**

### Tarixə qısaca nəzər

20 oktyabr 1910-cu il. Bakının üzərindən ilk təyyarə məhz bu tarixdə -105 il əvvəl uçmuşdur. Sergey Utoçkinin idarə etdiyi fransız biplanı bir neçə dairə edərək yerə enmiş və hər kəsi heyrətləndirmişdi. 1923-cü ildə "Muğan Meliorasiya Tikintisi", "Xəzər Dəniz Gəmiçiliyi" və " Azneft"in təsisçiliyi ilə "ZAKAVİA" -Zaqafqaziya Mülki Aviasiya Səhmdar Cəmiyyəti yaradılmışdı. Onun təyyarələrindən aerofotoçəkiliş işləri aparmaq, təcili yüklərin çatdırılması və poçtun daşınması üçün istifadə etmək nəzərdə tutulurdu. Ancaq "ZAKAVİA"nın işində qısa müddətdə böyük dönüş yaranır. Belə ki, artıq 1923-cü ilin aprelində "Yunkers" təyyarəsində Bakı-Tiflis-Bakı marşrutu ilə uçuş həyata keçirilir, iki il sonra Keşlədə aerodrom tikilir və mülki "Hava stansiyası" yaradılır. 1926-cı ildə Mineralnıye Vodı-Qroznı-Mahaçqala-Bakı-Yevlax-Tiflis marşrutları üzrə müntəzəm uçuşlar həyata keçirilir.

1929-cu ildə Xarkov-Bakı-Pəhləvi beynəlxalq xətti açılır, 1933-cü ildə isə ilk dəfə olaraq Qafqaz dağlarının üzərindən Moskva şəhərinə uçuş yerinə yetirilir. Növbəti ildə Bakı-Xarkov, Bakı-Qroznı, Bakı-Rostov, Bakı-Həştərxan, Bakı-Tiflis reysləri işə salındı, Bakı hava limanı isə Xalq Komissarları Sovetinin sərəncamı ilə müstəqil təsərrüfat vahidinə daxil edildi. Elə həmin ildə sərnişin daşımalarının həyata keçirilməsi məqsədilə aerovağzal istifadəyə verildi və tədricən iri beynəlxalq əhəmiyyətli hava limanına çevrildi.

Azərbaycanda ilk aviasiya qrupu 1938-ci il iyunun 2-də yaradıldı və bu tarix 2006-cı ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Azərbaycan Mülki Aviasiya Günü kimi elan edildi.

Azərbaycan aviasiyası ölkə iqtisadiyyatının inkişafına böyük xidmətlər göstərirdi. 1941-1945-ci illərdə isə Azərbaycan təyyarəçiləri müharibənin qələbə ilə başa çatması üçün bütün qüvvələrini səfərbər etdilər.

Ötən əsrin 70-80-ci illəri Azərbaycanın mülki hava donanması tarixində yeni keyfiyyətli dövr hesab edilir. Bu da təsadüfi deyil, çünki bu dövr ərzində Gəncədə, Yevlaxda, Naftalanda, Naxçıvanda, Zaqatalada, Lənkəranda, Ağdamda, Ağstafada, Şəkidə süni örtüklü uçuş-enmə zolaqları ilə təchiz olunan hava limanları tikilmişdi və onlar "YAK-40" reaktiv təyyarələrini qəbul etmək imkanına malik idilər.

Həmin dövrdə o zaman respublikaya rəhbərlik edən ulu öndər Heydər Əliyevin səyləri nəticəsində ölkənin avialayner parkı Sovet İttifaqında ilk olaraq "TU-134", "TU-154" reaktiv təyyarələri, "Mİ-2", "Mİ-8" helikopterləri ilə təmin olunmuşdu.





Mülki aviasiya strukturunun dünya standartlarına uyğun yenidən qurulması və inkişafı ümummilli liderimiz Heydər Əliyevin müdrik iqtisadi siyasətinin bəhrəsi, onun rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı islahatların, quruculuq işlərinin məntiqi nəticəsi idi. Hələ respublikaya rəhbərlik etdiyi ilk dövrdə, 1981-ci ildə ulu öndər Bakının hava limanında aerovağzal kompleksinin tikintisinə başlanılması üçün mərkəzin razılığını əldə etmişdi, lakin, müəyyən səbəblər üzündən bu obyekt tikilib başa çatdırılmadı.

90-cı illərin əvvəllərində ölkə iqtisadiyyatındakı böhran milli aviasiya kompleksindən də yan ötməmişdi. Yalnız 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə tarixi qayıdışından sonra mülki aviasiya sistemini düşdüyü ciddi böhrandan çıxarmaq mümkün oldu. Bilavasitə onun qayğısı və səyi ilə "Mülki aviasiya konsepsiyası" yaradıldı.

Milli Mülki Aviasiyamızın təməli hələ 70-ci illərdə Heydər Əliyev tərəfindən qoyulmuş, həmin illərdə bu istiqamətdə çox mühüm işlər, layihələr həyata keçirilmişdi. Ulu öndər bu missiyanı ikinci dəfə hakimiyyətə gəlişindən sonra da davam etdirdi. 1996-cı ildə milli aviasiya kompleksi köklü, əsaslı şəkildə dəyişdi, qlobal layihələr, proqramlar reallaşdırıldı, kompleksi dünya standartları səviyyəsinə çatdırmaq üçün 8 iri qlobal layihə gerçəkləşdirildi.

1996-2000-ci illərdə Azərbaycan hökuməti tərəfindən milli aviasiyamızın dünya standartlarına uyğunlaşdırılması, hava yollarımızın təhlükəsizliyinin və rahatlığının təmin edilməsi məqsədilə təxirəsalınmaz tədbirlər həyata keçirildi. "Bakı hava limanına təcili kömək" proqramı çərçivəsində iki mərhələdə böyük işlər görüldü, 1998-ci ildə gücü 1600 sərnişin/saat olan aerovağzal kompleksinin tikintisinə başlanıldı və 1999-cu ilin sentyabr ayında onun açılışı oldu. Bununla da milli aviasiya tarixində yeni bir səhifə açıldı.

"Əsrin müqaviləsi"ndən sonra xarici dövlətlərin ən nüfuzlu firma və şirkətlərinin respublikamıza marağı artdı, Azərbaycana gələnlərin sayı çoxaldı, eyni zamanda ölkə vətəndaşlarının xarici dövlətlərdə işbirliyi qurmaq arzusu yarandı. Gediş-gəlişin çoxalması, yeni-yeni reyslərin yüksək servis xidmətini köhnə avadanlıqlarla həyata keçirməyi çətinləşdirirdi. Beləliklə, dünyanın ən müasir tipli təyyarələrini Azərbaycana gətirmək zərurəti yarandı. "Azal" Dövlət Konserni ilə ABŞ-ın "Boinq" Şirkəti arasında bağlanan müqaviləyə əsasən iki ədəd "Boinq-757" tipli təyyarə respublikaya gətirildi. İlk "Boinq"in Azərbaycan torpağında yerə endiyi gün tarixi hadisəyə çevrildi.

### Azərbaycan Mülki Aviasiyası dünyaya sözünü deyir

Ulu öndərin layiqli davamçısı İlham Əliyevin hakimiyyətə gəlişilə müstəqil Azərbaycanın hava nəqliyyatı da sürətlə və uğurla inkişaf etməyə başladı. 2005-ci ilin martında Heydər Əliyev Beynəlxalq Hava Limanında yeni yük terminalı istifadəyə verildi. Mülki Aviasiyanın tarixində böyük əlamətdar hadisə olan yük terminalının açılış mərasimində çıxış edən ölkə başçısı İlham Əliyev demişdir: "Bu gözəl terminal bütün dünya standartlarına cavab verir və Azərbaycan üçün, Azərbaycanın gələcək inkişafı üçün çox mühüm rol oynayacaqdır."

Bəli, indi yükdaşımalara tələbatın artdığı bir zamanda bu terminal böyük əhəmiyyət kəsb edir. Belə ki, ABŞ, Fransa, Böyük Britaniya, Lüksemburq, Almaniya, Çin, Əfqanıstan, Orta Asiya, Ukrayna və dünyanın bir çox ölkələri üçün tranzit rolunu oynayan Heydər Əliyev Beynəlxalq Hava Limanı vasitəsilə daşınan yüklərin həcmi son zamanlar xeyli artmışdır.

Yük terminalının açılış mərasimində çıxışı zamanı "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Əsgərovun söylədiyi fikirlər də artıq reallığa çevrilmişdir: "Şübhəsiz ki, yük terminalı mülki aviasiyamızda istifadəyə verilən son obyekt olmayacaqdır. Ümumiyyətlə, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına əsasən 2004-2008-ci illər Azərbaycan Hava Yolları Dövlət Konserni üçün əsl quruculuq dövrü olacaqdır".

Ötən dövr ərzində bir çox yerli hava limanları istifadəyə verildi. 2006-cı ildə ölkənin 2-ci şəhəri olan Gəncə hava limanı yenidən quruldu, 2008-ci ildə Zaqatala və Lənkəran hava limanları istifadəyə verildi, 2011-ci ildə Qəbələ beynəlxalq aeroportunun açılışı oldu.

Naxçıvan Hava Limanı 1970-ci ildə tikilmişdir. Naxçıvan Muxtar Respublikasının Ermənistan tərəfindən blokadaya alınması nəticəsində hazırda aviasiya nəqliyyat əlaqəsi üçün yeganə vasitədir. 2004-cü ildən Naxçıvan Hava Limanı beynəlxalq hava limanı statusunu qazanmışdır.

Sərnişin və yük daşımaları ilə bağlı xidmətin səviyyəsini daha da yüksəltmək, təyyarə uçuşlarının təhlükəsizliyini dünya standartlarına uyğunlaşdırmaq məqsədilə xeyli əməli-praktiki addımlar atılmışdır. Yeni aerovağzal kompleksinin inşası da bu qəbildəndir. Burada həyata keçirilən yenidənqurma işləri ilə tanış olan ölkə başçısı İlham Əliyev mərasimdəki çıxışında yeni aeroportun tikintisini ölkəmizin həyatında əlamətdar hadisə kimi dəyərləndirərək demişdir: "Ölkəmizdə hava nəqliyyatının inkişafı sürətlə gedir. Burada hava nəqliyyatını təmsil edən yoldaşlar bunu yaxşı bilirlər. Son 7 ildə yeni təyyarələr - 10 Airbus təyyarəsi, ATR təyyarələri, 12 helikopter alınmışdır. Növbəti 3 il ərzində "Boinq" tipli 6 təyyarə alınacaqdır. Onlardan ikisi ən son model olan Boinq-787 drimlayner təyyarələridir."

Bu gün Azərbaycan Hava Yolları durmadan uçuşlarının sayını artırır, coğrafiyasını genişləndirir. Hazırda konsern 38 uçuş məntəqəsinə malikdir.

2011-ci ilin oktyabrında Azərbaycanda təsis edilən əsas yükdaşıyıcı aviaşirkəti "Silk Way" beynəlxalq "Hava Yük Assosiasiyası"nın tam hüquqlu üzvüdür. Bu gün şirkət "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti və "Karqo Lyuks Airlines İnternational" şirkəti, ABŞ, Böyük Britaniya, Almaniya, Çin, Lüksemburq, Türkiyə, Rusiya, BƏƏ, Ukrayna, Qazaxıstan, Gürcüstan və digər ölkələrin aviaşirkətləri ilə sıx əməkdaşlıq edir. Hazırda "Silk Way" Aviaşirkətinin aviaparkında "Boinq-747", "İl-76", "AN-12" təyyarələri fəaliyyət göstərir.

### Bu gün görülən işlər sabahkı uğurların təminatıdır



Mülki Aviasiyamız sürətlə inkişaf edir. Bütün görülən işlər isə ən ali məqsədə: uçuşların təhlükəsiz həyata keçirilməsinə yönəldilmişdir. Azərbaycan Hava Yolları Qapalı Səhmdar Cəmiyyəti Aviasiya Təhlükəsizlik İdarəsinin struktur bölmələri təhlükəsizliyin təmin olunmasına xidmət edir.

Milli kadr hazırlığı da qarşıda əsas məqsəd kimi qoyulur. 1992-ci ildə Azərbaycan Hava Yolları Dövlət Konserni (indiki Azərbaycan Hava Yolları Qapalı Səhmdar Cəmiyyəti) nəzdində Milli Aviasiya Mərkəzinin yaradılması həmin dövrdə kadr ehtiyacının ödənilməsi istiqamətində ilk addım oldu. 1994-cü ildə isə Milli Aviasiya Mərkəzi "Milli Aviasiya Akademiyası" adlandırıldı. Hazırda burada bir çox ixtisaslar üzrə kadr hazırlanır.

Elm və texnikanın ən son nailiyyətlərini özündə əks etdirən Milli Aviasiya Akademiyasının Trenajor mərkəzi Azərbaycan mülki aviasiyasının müasir hava gəmiləri parkının nomenklaturasını əhatə edərək pilotların ixtisaslarını artırmaları üçün nəzərdə tutulmuşdur. Burada elmlə tədrisin istehsalla sıx əlaqəsi bir-birini tamamlayır. Məhz buna görədir ki, MAA-nın məzunları Azərbaycan Mülki Aviasiya sistemində istismar olunan bütün tip təyyarə və helikopterləri peşəkarlıqla idarə etməyə qadirdirlər.

Bu gün Azərbaycanın Mülki Aviasiyası Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İCAO) standartlarına uyğundur. Azərbaycan Hava Yolları aviaşirkəti isə İCAO, İATA, ECAC, Dövlətlərarası Aviasiya Komitəsi kimi tanınmış Mülki aviasiya birliklərinin üzvüdür. "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin təyyarələri dünyanın onlarca şəhərinə müntəzəm uçuşlar yerinə yetirir. "Silk Way" Airlines yük aviaşirkətinin hava yolları isə bütün qitələrin üzərindən keçərək yüzə qədər ölkəyə uzanır.

Azərbaycanın milli aviadaşıyıcısı - "AZAL" aviaşirkəti xidmətin keyfiyyətini yüksəltmək məqsədilə yeni-yeni təşəbbüslərlə çıxış etməkdədir və Azərbayca Hava Yollarının uğurlarının sayı da artmaqdadır.

Bu yaxınlarda dünyaca məşhur və Böyük Britaniyanın aviaşirkətlərin xidmət səviyyəsinin qiymətləndirilməsi sahəsində ən nüfuzlu konsaltinq şirkəti olan "Skytrax" Azərbaycan milli aviadaşıyıcısını nüfuzlu "4 Ulduz" reytinqinə layiq görüb. İndi "AZAL" bu mükafata layiq görülmüş 35 aviaşirkət arasında özünə yer alıb.

Bütün bunlar isə Azərbaycan aviasiyasına dövlət nəzarətinin, ölkə başçısı İlham Əliyevin mülki aviasiyamıza diqqət və qayğısının məntiqi nəticəsidir. Bu, həm də Azərbaycanın Mülki Aviasiyasının uğurlu sabahının göstəricisi və qarantıdır.

Hər şəhərin öz giriş qapıları, hər qapının öz yolu var. Dəmiryolu, su yolu, hava yolu... Biz Bakının hava yolundan, onun keçmişindən, bu günündən danışdıq. Bu günün "Uçan xalça"larını durna qatarı kimi nizama düzən hava yolunun enişini, yoxuşunu seyr etdik. Bu yol hələ uzun onilliklər, bəlkə də yüzilliklər boyu ölkəmizə, xalqımıza səmərəli xidmət edəcəkdir. Biz də mülki aviasiyamıza yüksəliş yollarında rahat və təhlükəsiz uçuşlar arzulayırıq.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

*Yazı "Azərbaycan Hava Yolları" (AZAL) QSC və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün verilir.*